2022.- 2 iyun.- S. 2.

Azad AZƏRBAYCAN

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Vətən sevdalıları: Şəhid Həmidov Rəsman Mərdan oğlu



**Rəsman Mərdan oğlu Həmidov 1998-ci il iyunun 1-də Şamaxı rayonunun Adnalı kəndində zəhmətkeş bir ailədə anadan olmuşdur. O, 2004-2012-ci illərdə Qaradağ rayonunun Müşviqabad qəsəbəsinin 320 saylı tam orta məktəbində, 2012-2015-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2015-2019-cu illərdə isə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə ali hərbi təhsil almışdır.**

Rəsman Həmidov 2019-cu ildən Beyləqan rayonunda "N" saylı hərbi hissədə leytenant rütbəsi ilə xidmət etmişdir. O, 2020-ci ilin sentyabrın 27-də Vətən müharibəsi başlanan zaman Cəbrayılın, Füzulinin və Xocavənd rayonunun Hadrut qəsəbəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş, 2020-ci ilin oktyabrın 17-də Hadrut döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Şamaxı rayonunun Adnalı kənd qəbirstanlığında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Rəsman Mərdan oğlu Həmidov 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən Uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

**Ailədə bir bacı və bir qardaş idilər. Ailə qurmamışdı, nişanlı idi.**

**Allah rəhmət eləsin!**